# Bir ömür səhifələri

***Azərbaycan xalqının milli-mənəvi dəyər xəzinəsində qiymətli inci olan Zərbalı Qurbanov kimi müdrik insanlardan yazmaq, onların ömür yollarını, yaşam tərzlərini, apardıqları mübarizələri indiki və gələcək nəsillərə çatdırmaq çox faydalıdır.***

Zərbalı Qurbanov kamil insan, müdrik şəxsiyyət kimi gəncliyində ahıllıq-ağsaqqallıq mərtəbəsinə yüksələn insan idi. Barəsində yazılan hər söz, deyilən hər fikir onu yaxından tanıyan, dostluq sarayını birgə ucaldan, sözünə-söhbətinə, hikmətinə, biliyinə, istedadına və nəhayət geniş dünyagörüşünə heyran olan şəxs kimi mənim üçün də çox maraqlıdır.

Göyçə mahalının yetişdirib, boya-başa çatdırdığı qeyrətli, qürurlu, səxavətli, hörmətli, cəsarətli və ləyaqətli insanlardan biri də Zərbalı Qurbanov idi. Kimliyindən, mövqeyindən, vəzifəsindən asılı olmayaraq hamı Zərbalı Qurbanova böyük ehtiram göstərib, hörmət bəsləyirdi.

Zamanın tufanlarına, həyatın burulğanlarına mərdliklə sinə gərən və dövrün labirintlərində cəsarətlə irəliləyib müdriklik zirvəsinə yüksələn Zərbalı müəllim 71 il ömür yaşasa da onun hər günü, ayı, ili canlı tarix kimi yaddaşlara həkk edilib. O, həm də yumşaq, sadə, səmimi, mehriban, istiqanlı, mərhəmətli, sidq ürəklə Göyçə mahalına bağlı idi, Göyçə gölünün nəğməli sahillərində Zərbalı müəllimin ayaq izləri qalıb.

Neçə-neçə hadisələr fonunda, mübarizələr meydanında Zərbalı Qurbanov bütün əzəmətilə mərd dayanıb. O, həm də geniş dünyagörüşünə, zəngin həyat təcrübəsinə, ensiklopedik elmi biliyə, yüksək intellektə, təfəkkürə və natiqlik qabiliyyətinə malik şəxsiyyət idi.

Zərbalı Qasım oğlu Qurbanov 1934-cü ildə Qərbi Azərbaycanda - Basarkeçər rayonunun Nərimanlı kəndində dünyaya göz açmışdır. O, doğma kəndlərində ibtidai təhsilini başa çatdırdıqdan sonra Naxçıvan Pedaqoji məktəbinə daxil olmuş, elmi biliklərə mükəmməl yiyələnməyə maksimum səy göstərmişdir. Bir müddət Nərimanlı kənd orta məktəbində ədəbiyyat müəllimi, dərs hissə müdiri vəzifəsində çalışmış, gözlərinin nurunu, qəlbinin hərarətini gənc nəslin təlim-tərbiyəsinə həsr etmişdir.

Daha sonra Z.Qurbanov Gəncə Kənd Təsərrüfatı İnstitutunu (Kənd Təsərrüfatı Akademiyası) və Bakı Ali Partiya Məktəbini bitirmişdir. Onun bacarığı, işgüzarlığı nəzərə alınaraq rayon partiya komitəsinin göstərişi ilə Qoşabulaq kəndiqə kolxoz sədri təyin olunmuş, işlədiyi müddətdə təsərrüfatın dirçəldilməsinə maksimum səy göstərmiş, uğurlu nəticələrə nail olmuşdur. Zərbalı Qurbanov bir neçə il Basarkeçər Rayon Partiya Komitəsində ideoloji işlər üzrə təlimatçı vəzifəsində çalışmış, 1971-ci ilin yanvar ayında Rayon İcraiyyə Komitəsinin sədri vəzifəsinə təyin edilmişdir.

O, işlədiyi müddətdə azərbaycanlıların həyat tərzinin yaxşılaşdırılmasında əlindən gələn hər şeyi etmiş, xüsusilə gənc kadrların seçilib yerləşdirilməsini diqqət mərkəzində saxlamış, bir sözlə azərbaycanlıların müdafiəçisi olmuşdur.

1972-ci ilin aprel ayında Göyçə mahalının Ağkilsə kəndində el aşığı, saz-söz sərrafı Aşıq Ələsgərin 150 illik yubileyi keçirildi. Tədbirdə Azərbaycanın dövlət rəhbərləri, yazıçılar, incəsənət xadimləri, rayonun rəhbər şəxsləri iştirak edirdi.

Rübabə Muradovanın ifa etdiyi Azərbaycan mahnıları hamıda xoş ovqat yaratmışdı. Bu tədbirdə Basarkeçər Rayon İcraiyyə Komitəsinin sədri Zərbalı Qurbanov geniş çıxış etmiş, Azərbaycan aşıq poeziyasının inkişafında Dədə Ələsgərin böyük xidmətlərini vurğulamış, el sənətkarlarının şeirlərindən bir neçəsini söyləmişdir. Sonra Ağkilsədə Aşıq Ələsgərin zövqlə düzəldilmiş büstünün açılış mərasimi olmuşdur.



Göyçə mahalının mətin iradəli, dəyanətli oğlu Zərbalı Qurbanov 1981-ci ildə Amasiya Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsinə irəli çəkilmişdir. O, Amasiyada birinci katib işlədiyi 5 il ərzində rayonun sosial iqtisadi inkişafında ciddi dönüş yaradılmış, insanların həyat tərzinin yaxşılaşdırılması diqqət mərkəzində olmuşdur. Z.Qurbanov Amasiya Rayon Partiya Komitəsinin birinci katibi işlədiyi dövrdə, həm də Ermənistan KP MK-nın üzvü idi.



Zərbalı müəllim 1985-ci ildə Ermənistan MK-nın orqanı olan "Sovet Ermənistanı" qəzetinə baş redaktor vəzifəsinə təyin olunur. O, bu vəzifədə işlədiyi dövrdə həm də Ermənistan Ali Sovetinin deputatı, Ali Sovetinin sədr müavini idi. "Sovet Ermənistanı" qəzeti İrəvan şəhərindəki "Qızıl ordu" küçəsində yerləşirdi. Bu qəzet respublikada yaşayan azərbaycanlıların daha çox üz tutduğu məkana çevrilmişdi. "Sovet Ermənistanı" qəzetində böyük jurnalistlər ordusu çalışırdı. Qəzetin səhifələrində mütəmadi olaraq reportaj, müsahibə, oçerk, felyeton və digər janrlarda maraqlı yazılar dərc olunurdu. Hətta Azərbaycanın görkəmli alimlərinin yazılarına da yer ayrılırdı. Qəzetdə dərc olunan tənqidi yazılar çox vaxt respublikanın rəhbər vəzifələrində çalışan ermənilər tərəfindən qısqanclıqla qarşılanırdı.

1988-ci ildə erməni şovinistləri uydurma Qarabağ problemini ortaya atanda Zərbalı müəllim redaksiya kollektivi ilə iş başında idi. Bu hadisə redaksiyanın əməkdaşlarını çox narahat edirdi. Çox keçmədi ki, İrəvanın Mərkəzi meydanında erməni millətçiləri mitinqlərə başladılar. Axundov adına azərbaycanlı məktəbi yandırıldı. Hayların tələbi bu idi ki, azərbaycanlılar Ermənistan torpağını tərk etsinlər, Qarabağ Ermənistana birləşdirilsin. Əlbəttə, xəyanət toru Moskvada hazırlanmışdı. Mitinqlər get-gedə qızışırdı, çox keçmədən qatı millətçilərdən Zori Balayan, Silva Kaputikyan, Sero Xanzadyan və başqaları da mitinqlərə gəldi, televiziya kanallarında antitürk filmləri nümayiş etdirildi.

Ermənilər son deportasiyalarını da reallaşdırdılar. 1988-ci ilin şaxtalı günlərində 300 min azərbaycanlı Qərbi Azərbaycandan, yüz illər boyu yaşadıqları ata-baba torpaqlarından qovuldu. "Sovet Ermənistanı" qəzeti də öz fəaliyyətini dayandırdı, Zərbalı Qurbanov çox çətinliklə son nömrəni çıxarıb, qədim İrəvan şəhərini tərk etdi.

Zərbalı Qurbanov ailəsi ilə birlikdə Bakı şəhərində məskunlaşdı. 1994-cü ildə Azərbaycan Respublikası Qaçqınlar və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsində kadrlar üzrə aparıcı müfəttiş vəzifəsinə təyin olunmuş, daha sonra Prezident Administrasiyasının İşlər İdarəsində işləmiş, 2003-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Zərbalı Qurbanov qeyrətli, fitri istedadlı, elmi ürfan sahibi, millətini, yurdunu ürəkdən sevən alovlu vətənpərvər və nəhayət öz işinin kamil ustası və yorulmaq bilmədən çalışan layiqli rəhbər, mahir təşkilatçı olub.

**Qədir ASLAN,**
**Əməkdar jurnalist.**